# İslahatların yeni mərhələsində

**Azərbaycanda dayanıqlı iqtisadi inkişafın sürətləndirilməsi və bunun nəticəsində maliyyə imkanlarının genişlənməsi sosial sahədə dövlət siyasətinin daha uğurla reallaşdırılmasını təmin edir. Hazırda bu, sözügedən istiqamətdə tədbirlərin ardıcıl şəkildə həyata keçirilməsi prosesində daha aydın müşahidə olunur.**

Xatırladaq ki, hələ 2018-ci il aprelin 18-də Milli Məclisdə keçirilən andiçmə mərasimində Prezident İlham Əliyev gələcək fəaliyyət prioritetlərini elan edərkən, sosial məsələlərin diqqət mərkəzində olacağını bildirmiş-di: "Gələcək fəaliyyətimdə də Azərbaycan vətəndaşının maraqları, onun rifahı daim diqqət mərkəzində olacaqdır. Nəzərə alsaq ki, növbəti illərdə biz çox ciddi islahatlar aparacağıq, islahatları dərinləşdirəcəyik, əminəm ki, vətəndaşlarımızın yaşayış səviyyəsi daha da yaxşılaşacaq-dır".

Bu gün Azərbaycan sosial islahatların yeni mərhələsini yaşayır. Qeyd etdiyimiz kimi, iqtisadiyyatda reallaşdırılan tədbirlər əlavə gəlirlərin əldə olunmasına və büdcənin güclənməsinə imkan verir. Təkcə cari ilin yanvar-fevral aylarında büdcə daxilolmalarının 150 milyon manat səviyyəsində qeydə alınması və həmin vəsaitin sosial layihələrə yönəldilməsi bunun bariz ifadəsidir.

Xatırladaq ki, ilin ilk üç ayında respublikada 3 milyon vətəndaşın rifahına birbaşa təsir göstərən sosial xarakterli tədbirlər gerçəkləşdirilib. Dövlət başçısı bu ilin əvvəlindən başlayan islahatların əsas hədəfinin də Azərbaycanı inkişaf etmiş ölkəyə çevirmək, mövcud olan nöqsanları aradan qaldırmaq, vətəndaşlarda narahatlıq doğuran problemləri tamamilə gündəlikdən çıxarmaq, insanların rifah halını yaxşılaşdırmaq və daha güclü, qüdrətli dövlət qurmaqdan ibarət olduğunu vurğulayıb.

## Prezident qayğısı

Prezident İlham Əliyevin cari ilin ötən aylarında sosial sahədə qəbul etdiyi mühüm qərarlar birdəfəlik ödəmə alacaq şəhid ailələrinin əhatə dairəsin genişləndirilməsi ilə başladı. Keçən il aprelin 11-də keçirilən seçkilərdə inamlı qələbə qazanan cənab İlham Əliyevin növbəti prezidentlik müddətində imzaladığı ilk fərman da məhz şəhid ailələrinin sosial müdafiəsi ilə bağlı oldu. 2018-ci il 19 aprel tarixli həmin fərmana əsasən qeyd olunan şəhid hərbi qulluqçuların vərəsələrinə 11 min manat məbləğində birdəfəlik ödəmələrin verilməsi nəzərdə tutuldu. Dövlət başçısının cari il yanvarın 28-də imzaladığı fərmanla isə 11 min manat birdəfəlik ödəmə alacaq şəhid ailələrinin əhatə dairəsi daha da genişləndirildi.

Respublikamızın ərazi bütövlüyü uğrunda 1997-ci il avqust ayının 2-dək şəhid olmuş əlavə 2725 şəhidin vərəsələrinə də birdəfəlik ödəmənin verilməsi sənəddə əksini tapdı. Dövlət başçısının bu il yanvarın 30-da imzaladığı digər fərmanla isə şəhid ailələri üçün Prezident təqaüdünün aylıq məbləği 58 manat artırılaraq 300 manat müəyyənləşdirildi.

Məcburi köçkünlərə verilən aylıq müavinətlər də 50 faiz artırıldı. Hazırda məcburi köçkünlərdən 81 min 476 nəfəri 22 manat, 415 min 81 nəfəri 40 manat məbləğində vahid aylıq müavinət alır. Aprelin 1-dən isə həmin məbləğlər, müvafiq olaraq, 33 və 60 manat təşkil edib.

## Vətəndaşlara qayğının əyani ifadəsi

Sosial islahatlar sırasında minimum aylıq əməkhaqqının artırılması ilə bağlı atılan addım da mühüm önəm daşıyır. Cari il fevralın 8-də imzalanan sərəncamla ölkə üzrə minimum əməkhaqqı 50 manat (38,5 faiz) artırılaraq 180 manata çatdırılıb. Bu, dövlət büdcəsindən maliyyələşən təşkilatlarda və özəl sektorda işləyən 600 min işçinin əməkhaqqının artması deməkdir.

Ölkə rəhbərinin fevralın 14-də imzaladığı "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli fərmanında dəyişiklik edilməsi barədə fərman, "Ali təhsil müəssisələrində təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə" və "Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında" sərəncamlar da sosial islahatlar paketinin mühüm tərkib hissələridir. Bu sərəncamlarla təqribən 100 mindən çox tələbənin təqaüdü artırıldı. Həmin sənədlər təkcə bir gəncin təqaüdünün artırılması və yaxud ailə vəziyyətinin yaxşılaşdırılması ilə bağlı deyil, həm də dövlət başçısının öz vətəndaşlarına olan qayğısının əyani ifadəsidir.

Başqa bir mühüm sosial qərar əmək pensiyasının minimum məbləğinin artırılması oldu. Bununla bağlı qanun layihəsi Milli Məclisin fevralın 19-da keçirilən iclasında qəbul edildi. Prezident İlham Əliyevin təsdiqlədiyi həmin qanuna əsasən martın 1-dən əmək pensiyasının minimum məbləği 160 manat miqdarında müəyyənləşdirildi. Dəyişiklik 233 min nəfərin pensiyasında artıma gətirib çıxardı.

Bu il fevralın 25-də imzalanan "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" Sərəncama uyğun olaraq, sosial müavinətin məbləğinin yaşa görə müavinət alanlar üçün 73 manatdan 130 manata, I qrup əlilliyə görə 150 manata, II qrup əlilliyə görə 130 manata, III qrup əlilliyə görə isə 110 manata, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar üçün 82 manatdan 150 manata, ailə başçısını itirməyə görə isə ailə üzvlərinin hər biri üçün 68 manatdan 80 manata çatdırılması nəzərdə tutulurdu. Həmçinin sosial müavinətin məbləği valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumları üçün 61 manatdan 100 manata, müddətli həqiqi hərbi xidmət qulluqçularının uşaqları üçün 68 manatdan 100 manata, beşdən çox uşağı olan qadınların hər uşağı üçün 33 manatdan 55 manata, uşağın anadan olmasına görə 109 manatdan 200 manata, dəfn üçün ödənilən sosial müavinətin məbləği isə 146 manatdan 300 manata çatdırıldı.

Sərəncam, eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin təqaüdü ilə təmin edilənlərin əhatə dairəsinin genişlənməsinə əsas yaratdı.







## Vətəndaş məmnunluğunun təmin edilməsində daha bir nümunə

Vətəndaşları son illərdə narahat edən məsələlərdən biri yeni inşa edilən binalarda aldıqları mənzillərin sənədləşdirilməsində yaranan problem idi. Dövlət başçısı fevralın 19-da imzaladığı "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" fərmanla bu probleme birdəfəlik son qoydu, təxminən 400 çoxmənzilli binanın sənədləşməsi məsələsində yaranmış problemlərin aradan qaldırılması nəzərdə tutuldu.

Adıçəkilən fərmanda qeyd edilir ki, respublikada əhalinin yaşayış səviyyəsinin və sosial rifahının yüksəldilməsi dövlət siyasətinin başlıca prioritetlərindən biridir. Ona görə də ölkənin sosial-iqtisadi inkişafı konsepsiyasına uyğun olaraq vətəndaşların mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına yönələn məqsədyönlü və sistemli tədbirlər həyata keçirilir. Son illərdə Azərbaycan iqtisadiyyatının bütün sahələrində, o cümlədən inşaat sektorunda əhəmiyyətli inkişaf müşahidə olunur, şəhərsalma və tikinti sahələrində irihəcmli investisiyaların böyük hissəsi çoxmənzilli yaşayış binalarının tikintisinə istiqamətləndirilir.

Lakin bütün bunlara baxmayaraq, ötən müddət ərzində bəzi çoxmənzilli yaşayış binalarında tikinti işləri şəhərsalma qanunvericiliyinin tələblərinə riayət olunmadan və ya sənədləşdirilməsində ciddi qüsurlar buraxılaraq, sakinlərinin hüquq və maraqları nəzərə alınmadan aparılıb. Təbii ki, bu da, öz növbəsində, bir sıra hallarda həmin çoxmənzilli binaların rəsmiləşdirilməsini qeyri-mümkün edib.

Ona görə də adıçəkilən fərmanda cari il yanvarın 1-dək bütün mərtəbələrinin, yan divarlarının və dam örtüyünün inşası daxil olmaqla tikinti-quraşdırma işləri başa çatan və istismar edilən mənzilləri olan yaşayış binalarının istismarına icazə verilməsi qaydaları müəyyənləşdirilib. Bununla əlaqədar müvafiq dövlət qurumlarına konkret tapşırıqlar verilib.

Yeri gəlmişkən, hazırda fərmanın icrası istiqamətində konkret addımlar atılır. Bakının Səbail rayonunun Abbasquluzadə küçəsi, 17 ünvanında "İdeal" MTK tərəfindən inşa edilən hündürmərtəbəli, çoxmənzilli binanın sakinlərinə çıxarışların təqdim olunması bunun bariz ifadəsidir.

## Prezidentin fərmanı devalvasiyadan əziyyət çəkən insanları sevindirdi

Bir neçə il bundan əvvəl dünya iqtisadi və maliyyə böhranı Azərbaycan iqtisadiyyatına da təsirsiz ötüşməmiş, əhalinin sosial cəhətdən həssas qrupunun ödəmə qabiliyyətinin zəifləməsinə təsir göstərmiş, nəticədə kredit təşkilatlarından borc alan vətəndaşların bank sistemi qarşısında öhdəliklərinin yerinə yetirilməsində müəyyən çətinliklər yaranmışdır.

Dövlətimizin başçısı fevralın 25-də Prezident yanında keçirilən iqtisadi və sosial məsələlərlə bağlı müşavirədəki çıxışında bu məsələyə toxunmuş, problemli kreditlərlə əlaqədar hökumət üzvlərinə müvafiq göstərişlər verdiyini, təkliflər paketi hazırlandığını, işin son mərhələdə olduğunu diqqətə çatdırmışdır.

Ölkə rəhbəri bu il fevralın 28-də imzaladığı "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanla vətəndaşların kredit problemini birdəfəlik həll etdi. Dövlətimizin başçısı bununla da xalqa xidmətin ən yüksək nümunəsini göstərdi.

Fərmana əsasən, fiziki şəxslərin banklara 10 min ABŞ dollarınadək xarici valyutada olan əsas kredit borclarının devalvasiya ilə bağlı manatla artmış hissəsi qiymətləndirilərək Mərkəzi Bankın elan etdiyi məzənnəyə uyğun olaraq, dövlət büdcəsinin vəsaiti hesabına üç aydan gec olmayaraq manatla ödəniləcək. Bu fərman ümumilikdə 800 min nəfər vətəndaşı əhatə edəcək.

## İslahatlar daha da dərinləşəcək

Prezident İlham Əliyev Novruz bayramı münasibətilə təbrikində növbəti islahatların da anonsunu verib. Vurğulayıb ki, islahatlar yalnız iqtisadi və sosial sfera ilə kifayətlənməyəcək: "İslahatlar dərinləşəcək. İslahatlara alternativ yoxdur. Siyasi islahatlar, iqtisadi islahatlar, sosial sahədə islahatlar, məhkəmə-hüquq sistemində islahatlar, – artıq müvafiq göstərişlər verilib və sənədlər paketi hazırlanır, – təhsil, səhiyyə sahələrində, hər bir sahədə, Azərbaycan yeni dövrə qədəm qoyub. Azərbaycan yeniləşir, Azərbaycan güclənir və müasirləşir. Biz dərin milli-mənəvi köklər üzərində güclü dövlət qurmuşuq. Azərbaycan tarixdə heç vaxt indiki qədər güclü olmamışdır. Ancaq o demək deyil ki, əldə edilmiş bu nailiyyətlərlə kifayətlənməliyik. Əldə edilmiş nailiyyətlər bizi gələcəyə daha da nikbin baxmağa həvəsləndirir, buna sövq edir".

Bütün bunlar isə onu göstərir ki, ölkə Prezidentinin həyata keçirdiyi islahatlar məhz dövlətin və xalqın maraqlarına xidmət edir. Ən əsası dövlət hər addımda öz vətəndaşının yanındadır. Dövlət başçısının elan etdiyi yeni islahatların isə təhsil, səhiyyə, məhkəmə və digər sahələrdə də dəyişikliklərə yol açacağı, vətəndaş məmnunluğunun daha da möhkəmlənəcəyi şübhəsizdir.

*Vaqif BAYRAMOV,*
*"Xalq qəzeti"*